# Məntiqi təfəkkürün yoxlanılması üzrə test imtahanı PROQRAMI

| MÖVZULAR |
|---|
| **1. VERBAL TEST TAPŞIRIQLARI** |
| Analogiya ilə bağlı tapşırıqlar (analogiyaya görə sözün və ya sözlərin seçilməsi) |
| Söz ehtiyatının zənginliyinə, müxtəlif sözlərin müqayisəsi, ümumiləşdirilməsi, mücərrədləşdirilməsinə əsaslanan tapşırıqlar (digərlərindən fərqlənən sözün (sözlərin) tapılması, verilmiş sözlərə mənaca ən yaxın olan və ya zidd olan, verilənlərlə heç bir əlaqəsi olmayan sözün tapılması, söz sırasındakı məntiqi ardıcıllığın tapılması və s.) |
| Anaqramların həllinə əsaslanan tapşırıqlar (anaqramları həll etməklə fərqli sözün seçilməsi, uyğunluğun müəyyənləşdirilməsi, yarımçıq yazılmış sözlərin tamamlanması və s.) |
| Mətn və ya cümlə formasında verilənlərlə bağlı tapşırıqlar (cümlənin məntiqi tamamlanması, mətnin (cümlənin) məntiqi təhlili, qoyulan şərtə əsasən məntiqi nəticənin tapılması, mətnin məzmunu ilə bağlı sualın cavablandırılması və s.) |
| **2. FİQURLARLA BAĞLI TEST TAPŞIRIQLARI** |
| Analogiyaya görə şəklin seçilməsi tələb olunan tapşırıqlar |
| Şəklin məntiqi tamamlanması, sıranın davam etdirilməsi tələb olunan tapşırıqlar |
| Fiqurun (şəklin) hissələrinin xəyalən birləşdirilməsi və ya ayrılması ilə bağlı tapşırıqlar |
| Fiqurun hissələri arasında fəza münasibətlərinin müəyyən edilməsinə (verilmiş fəza fiqurunun açılışının tapılması, verilmiş açılışa görə fiqurun fəza görünüşünün tapılması, verilmiş bir və ya bir neçə görünüşə görə mümkün olan digər görünüşün tapılması və s.) əsaslanan tapşırıqlar |
| Simmetriyanın müəyyən edilməsi ilə bağlı tapşırıqlar (qatlanaraq kəsilmiş kağızın açılışının tapılması və s.) |
| Şifrlənmiş məlumatın açılmasını tələb edən tapşırıqlar |
| Digərlərindən fərqlənən şəklin tapılması tələb olunan tapşırıqlar |
| Verilmiş təlimata uyğun həll edilməsi tələb olunan digər tapşırıqlar |
| **3. MƏNTİQİ-RİYAZİ TEST TAPŞIRIQLARI** |
| Verilmiş nümunələrə (müxtəlif şəkildə təqdim oluna bilər) əsasən riyazi qanunauyğunluğun tapılması və (və ya) tətbiq edilməsini tələb edən tapşırıqlar |
| Riyazı əməl(lər)ə görə (toplama, çıxma, vurma və bölmə) dəyişən(lər)in tapılmasını tələb edən tapşırıqlar (verilmiş riyazi əməldə hərflərlə ifadə olunmuş rəqəmlərin tapılması, tərəzidə tarazlığın təmin edilməsi, ədədi matrislərin təhlili, tənliklərin qurulması və həllini tələb edən digər tapşırıqlar) |
| Verilmiş fiqurun perimetr və ya sahəsinin tapılması tələb olunan tapşırıqlar |
| Məntiqi-riyazi məsələlər |
| Müxtəlif formada verilənlərin təhlilinə əsaslanan tapşırıqlar |

***Qeyd:*** AB və AC vəzifə qrupları üzrə məntiqi təfəkkürün yoxlanılması üzrə imtahan blokuna əlavə olaraq sosial-praktiki intellekti və analitik təhlil bacarıqlarını yoxlayan tapşırıqlar da daxil edilir.

## ƏDƏBİYYAT


**1.** Əsədov R.İ. Məntiqi təfəkkürü yoxlayan testlər. DİM, Bakı, 2021
**2.** Məntiq testləri. Təkmilləşdirilmiş V nəşr. "Abituriyent" jurnalının xüsusi buraxılışı. Bakı, 2015
**3.** "Abituriyent" jurnalının xüsusi buraxılışı – Magistr №2. Bakı, 2017.
**4.** Boqomolova O. B. Məntiq məsələləri. Bakı: Çıraq, 2007.
**5.** Doğan S. Şekil yetenek. Ankara, 2010.
**6.** ALES. Ankara: Kapadokya Yayınevi, 2010.
**7.** Рассел К. , Картер Ф. Большая книга IQ тестов. 1600 заданий. М. , 2007.
**8.** Айзенк Г. Классические IQ тесты. М. , 2003.
**9.** Баррет Д. Проверь себя. Тесты. СПб. , 2007.
**10.** SAT Verbal Workbook by Justin Kestler. New York, 2010.
**11.** GRE General Test. Practice Book (https://www.ets.org/gre/revised_general/prepare/).
**12.** GRE Revised General Test (https://www.ets.org/s/gre/pdf/practice_book_GRE_pb_revised_ general_test. pdf).
**13.** Magistr jurnalı №1 və №2. DİM – "Abituriyent" – 2018 (*https://eservices.dim.gov.az/ejurnal/*)

**14.** "Dövlət qulluğuna qəbul üzrə müsabiqəyə hazırlaşanlar üçün təlimat." Metodik vəsait. DİM – "Abituriyent" – 2018
**15.** Dövlət qulluğu jurnalı №1(9). DİM – "Abituriyent" – 2020
**16.** Dövlət qulluğu "1000 test tapşırığı". DİM – "Abituriyent" – 2020
**17.** Dövlət qulluğu "2000 test tapşırığı". DİM – "Abituriyent" – 2024

***Qeyd: Namizədlər dövlət qulluğuna qəbul imtahanına hazırlaşarkən məntiqi təfəkkürü yoxlayan müxtəlif məzmunlu test tapşırığı nümunələri ilə tanış olmaq üçün verilmiş ədəbiyyat siyahsında adı olmayan vəsaitlərdən və müxtəlif internet resurslarından da istifadə edə bilərlər.***